

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 66 (20.967)

12 aprel 2014-cü il, şənbə

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqla təchiz olunması ilə bağlı tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin

## Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

1. Naxçıvan Muxtar Respublika Xəstəxanasının müasir tibbi avadanlıqla təchiz olunması məqsədi ilə Azərbaycan Respublikasının 2014-cü il dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin ehtiyat fondundan Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabinetinə 9,0 (doqquz) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu Sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı şəhəri, 11 aprel 2014-cü il*

## Dövlət proqramı uğurla icra olunur

***Muxtar respublikada əmək bazarının tənzimlənməsi və əhalinin səmərəli məşğulluğunun təmin edilməsi məqsədilə Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 18 dekabr 2013-cü il tarixli Sərəncamı ilə "2014-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin məşğulluğunun artırılması üzrə Dövlət Proqramı" təsdiq edilmişdir.***

Naxçıvan Muxtar Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyindən aldığımız məlumata görə, cari ilin I rübü ərzində dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası istiqamətində bir sıra işlər görülmüşdür. Belə ki, tələb və təklifin müəyyənləşdirilməsi məqsədilə muxtar respublikanın əmək bazarının real vəziyyəti təhlil edilmiş, muxtar respublikada həyata keçirilən məqsədyönlü iqtisadi islahatlar, eləcə də yaradılan yeni iş yerləri hesabına əmək bazarı və məşğulluq xidməti orqanlarında son iki il ərzində işsizlik statusunun verilməsi halları qeydə alınmamışdır. Əmək bazarında təklif olunan işçi qüvvəsi ilə mövcud iş yerlərinin sayı arasında tarazlıq sabitdir.

Müəssisələrdən boş iş yerlərinin toplanmasını təmin etmək məqsədilə Naxçıvan Muxtar Respublikası Vergilər Nazirliyində qeydiyyatdan keçmiş fiziki və hüquqi şəxslər haqqında hər ay təqdim edilən məlumata əsasən, müəssisələrdə olan boş iş yerləri haqqında məlumatlar toplanılır.

Müvafiq dövr ərzində müxtəlif peşə istiqaməti üzrə kadrlara olan tələbatın müəyyənləşdirilməsi məqsədilə 174 müəssisədə sorğular keçirilmişdir.

Məşğulluq xidməti orqanlarında qeydiyyatda olan vakant iş yerlərinə 602 işaxtaran şəxsin göndərilməsi təmin edilmişdir.

İşaxtaran vətəndaşların müvəqqəti məşğulluğunu təmin etmək məqsədilə 13 nəfər sosial əhəmiyyətli (əl ilə xalça toxunuşu) haqqı ödənilən ictimai işlərə cəlb olunmuş və evlərdə xalça toxunması işi həyata keçirilir.

Muxtar respublikada aktiv məşğulluq tədbiri kimi əmək yarmarkalarının keçirilməsi davam etdirilir.

Cari ilin yanvar-mart aylarında kiçik və orta sahibkarlığın inkişafı, həmçinin yeni iş yerlərinin yaradılması məqsədilə sahibkarlara dövlət maliyyə dəstəyi davam etdirilmişdir. Belə ki, müxtəlif çeşidli ərzaq məhsullarının istehsalı, tərəvəz məhsullarının yetişdirilməsi və heyvandarlıq təsərrüfatının genişləndirilməsi layihələrinə görə, 13 fiziki şəxsə, ümumilikdə, 6 milyon 856 min manat, o cümlədən Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına 115 min manat güzəştli şərtlərlə kredit verilmişdir.

Sahibkarların maarifləndirilməsi, onlara iqtisadi və hüquqi informasiyaların verilməsi məqsədilə yaradılmış operativ nəzarət sistemi vasitəsilə məsləhət xidməti göstərilmişdir.

Hazırda Naxçıvan Regional Peşə Tədris Mərkəzində əmək bazarının tələbləri nəzərə alınaraq rəqabətqabiliyyətli ixtisaslar – traktorçu-maşınçı, dərzi, xalçaçı peşələri üzrə kurslar davam etdirilir.

Xidmət sahələrində işləyən işçilər üçün peşələrə uyğun standartların tətbiqi, xidmət sahələri üzrə peşəkar kadrların hazırlanması istiqamətində də bir sıra işlər görülmüşdür. Muxtar respublikamızda fəaliyyət göstərən təhsil müəssisələrinin və şadlıq saraylarının xidməti işçiləri üçün "İctimai-iaşə obyektlərinin fəaliyyətlərinə dair tələblər" hazırlanmış, eyni zamanda onlar üçün vahid geyim formaları müəyyənləşdirilmiş, Naxçıvan Regional Peşə Tədris Mərkəzində 8 nəfərdən ibarət ofisiant və 11 nəfərdən ibarət aşpaz peşələri üzrə kurslar təşkil edilmişdir.

Nazirlikdən onu da bildirmişlər ki, rüb ərzində Naxçıvan şəhərində fəaliyyət göstərən 20 pərakəndə satış mağazasının 20 işçisinə, 9 ictimai-iaşə obyektində fəaliyyət göstərən 20 nəfər işçi heyətinə kurslar tədris olunmuşdur.

Əmək bazarının tələblərinə uyğun olaraq, gənclərin milli və xalq tətbiqi sənət növlərinə marağının artırılması məqsədilə "Naxçıvan Biznes Mərkəzi" Məhdud Məsuliyyətli Cəmiyyətinin tabeliyində fəaliyyət göstərən xalq yaradıcılıq emalatxanasında ağac üzərində oyma, rəssamlıq, xalçaçılıq, dekorativ-tətbiqi sənət növləri üzrə sahə fəaliyyət göstərir.

Naxçıvan Biznes Mərkəzində muxtar respublikanın aidiyyəti dövlət orqanları nümayəndələrinin və sahibkarlıq subyektlərinin iştirakı ilə "Əmək bazarında əcnəbi işçiyə olan tələbatın müəyyənləşdirilməsi" mövzusunda tədbir keçirilmişdir.

Muxtar respublikanın ümumtəhsil məktəblərinin yuxarı sinif şagirdlərinin peşə seçiminə kömək məqsədilə, ümumilikdə, 101 ümumtəhsil məktəbinin yuxarı sinif şagirdlərinə peşəyönümü məşğələlər keçilmişdir. Məşğələlərdə muxtar respublikanın əmək bazarının tələbinə uyğun peşə və ixtisaslar barədə məlumatlar verilmiş və sorğular keçirilmişdir. Bu istiqamətdə tədbirlər tədris ili müddəti ərzində davam etdiriləcəkdir.

Dövlət və özəl müəssisələrdə sosial müdafiəyə ehtiyacı olanların və işə düzəlməkdə çətinlik çəkənlərin işlə təmin olunması üçün 163 kvota yerinin ayrılması təmin edilmişdir. Rüb ərzində sosial müdafiəyə ehtiyacı olan 22 şəxsin kvota yerlərinə göndərilməsi, sağlamlıq imkanları məhdud 2 nəfərin peşə kurslarına cəlb edilməsi təmin edilmiş, həmçinin Penitensiar Xidmətin cəzaçəkmə müəssisəsində misgər peşəsi üzrə kurs təşkil edilmişdir.

İşçilərin əmək hüquqlarının təmin edilməsi istiqamətində də işlər görülmüşdür. Belə ki, qeyri-formal məşğulluğun qarşısının alınmasına, işə götürülən şəxslərlə əmək müqavilələsinin bağlanmasına, onlara verilən əməkhaqlarının reallığı əks etdirməsinə nəzarət artırılmış, işəgötürənlər tərəfindən işçilər üçün müvafiq əmək şəraitinin yaradılmasının, istehsal müəssisələrində işçilərin əməyin mühafizəsi qaydalarına riayət etmələrinin vəziyyəti ilə əlaqədar muxtar respublika üzrə 20 obyektə baxış keçirilmiş, ümumilikdə, 21 halda istehsalatda çalışan işçilər fərdi və kollektiv mühafizə vasitələri ilə təmin edilmişlər.

Naxçıvan Muxtar Respublikası ərazisində tikinti işlərini həyata keçirən 13 özəl və dövlət tikinti müəssisələrinin əməyin mühafizəsi mütəxəssislərinin peşəkarlığını artırmaq məqsədilə Naxçıvan Regional Peşə Tədris Mərkəzində "Əməyin mühafizəsi və texniki təhlükəsizlik qaydalarına riayət olunması" mövzusunda ixtisasartırma kursu təşkil olunmuş, həmçinin 133 müəssisədə istehsalatda bədbəxt hadisələr və peşə xəstəlikləri nəticəsində peşə-əmək qabiliyyətinin itirilməsi hallarından icbari sığorta müqavilələrinin bağlanması təmin edilmişdir.

Əmək bazarının tələblərinə uyğun təşkil olunan peşə kursları, ictimai işlər, habelə vakansiyalar barədə məlumatların işaxtaranlara çatdırılması məqsədilə internet saytı hazırlanır.

Dövlət proqramında qarşıya qoyulan vəzifələrin icrası davam etdirilir.

## Heydər Əliyev Universitetinin növbəti məşğələsi



Naxçıvan Dövlət Universitetinin nəzdində fəaliyyət göstərən Heydər Əliyev Universitetinin növbəti, 180-ci məşğələsi keçirilib. "Ulu öndər Heydər Əliyev və Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafı" mövzusuna həsr olunmuş məşğələni universitetin rektoru, professor Saleh Məhərrəmov giriş sözü ilə açaraq bildirib ki, muxtar respublikada qazanılan bütün uğurların əsasında Heydər Əliyev yoluna sadiqlik, bu yolda göstərilən böyük əzmkarlıq, möhkəm qətiyyət, dövlət və Vətən sevgisi dayanır. Naxçıvan Muxtar Respublikasında son dövrlərdə həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri bütün istiqamətlərdə əsaslı nailiyyətlərin əldə olunmasını təmin edib. Qeyd olunub ki, Naxçıvanda aparılan abadlıq-quruculuq işləri ulu öndər Heydər Əliyev tərəfindən hazırlanan və ölkə başçısı cənab İlham Əliyevin, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri cənab Vasif Talıbovun uğurla davam etdirdiyi inkişaf proqramının əməli nəticələridir. Buna görədir ki, qədim tarixə, mühüm siyasi və iqtisadi strateji əhəmiyyətə malik region bu gün misligörünməmiş şəkildə tərəqqi etməkdədir.

Sonra universitetin İqtisad fakültəsinin dekan müavini, iqtisad üzrə fəlsəfə doktoru, dosent Müslüm Cabbarzadənin məruzəsi dinlənilib. Bildirilib ki, ümummilli lider Heydər Əliyevin Azərbaycanda yenidən ali hakimiyyətə qayıdışından sonra Naxçıvan iqtisadiyyatı təcrid olunmuş şəkildə deyil, ölkə iqtisadiyyatı ilə üzvi vəhdətdə inkişaf etməyə başladı və iqtisadi islahatların aktiv həyata keçirildiyi regiona çevrildi. Müasir dövrdə muxtar respublikada sosial, mədəni və iqtisadi sahələrdə baş verən sürətli yüksəliş Naxçıvan iqtisadiyyatının keyfiyyətcə yeni inkişaf mərhələsinə qədəm qoyması ilə nəticələnib. Çevik və səmərəli islahatlar, qarşıdakı məqsədlərə uyğun qəbul edilən və reallaşdırılan dövlət proqramları, innovasiyalı inkişaf və idarəetmə, mövcud potensialdan maksimum istifadə muxtar respublikanın müasir iqtisadiyyatını səciyyələndirən əsas xarakterik xüsusiyyətlərdir. Muxtar respublikanın bütün yaşayış məntəqələrində nəqliyyat-kommunikasiya sisteminin yenidən qurulması, elektrik enerjisi, rabitə, qaz, su təminatı kimi sosial məsələlərin həlli, müasir informasiya texnologiyalarının tətbiqi mədəni-intellektual yüksəlişə əsaslı zəmin yaradıb.

Vurğulanıb ki, mövcud potensialdan səmərəli istifadə edilməsi iqtisadiyyatın ayrı-ayrı sahələrinin inkişafına, istehsal müəssisələrinin fəaliyyətinin genişləndirilməsinə, ixracyönlü məhsul istehsalının stimullaşdırılmasına, sahibkarlığın inkişafına, əhalinin həyat səviyyəsinin yüksəldilməsinə, məşğulluq səviyyəsinin, xüsusilə gənclərin məşğulluğunun artırılmasına geniş imkanlar açıb.

**Mina QASIMOVA**

## Ədliyyə Nazirliyi Kəngərli rayonundakı bələdiyyələrin üzvləri ilə görüş keçirib



***Tədbiri giriş sözü ilə Kəngərli Rayon İcra Hakimiyyətinin başçısı Ramiz Cəfərov açaraq rayonda bələdiyyələrə göstərilən dövlət qayğısından danışıb, yaradılan şərait müqabilində yerli özünüidarəetmə orqanlarının fəaliyyətində buraxılan nöqsanların yolverilməz olduğunu bildirib.***

Naxçıvan Muxtar Respublikasının ədliyyə naziri, II dərəcəli dövlət ədliyyə müşaviri Suliddin Əliyev çıxış edərək bildirib ki, nazirlik tərəfindən bələdiyyələrə metodik köməkliyin göstərilməsi və bələdiyyələrin fəaliyyətinə inzibati nəzarətin səmərəli təsiri istiqamətində işlər mütəmadi davam etdirilir. Ötən dövr ərzində Naxçıvan Muxtar Respublikası üzrə fəaliyyət göstərən bələdiyyələr üçün seminarlar təşkil olunub və onlara müvafiq normativ-hüquqi aktların tələbləri izah edilib. Bundan başqa, yerli özünüidarəetmə orqanları zəruri metodik vəsaitlərlə təmin olunublar. Bələdiyyələr tərəfindən kargüzarlıq işlərinin aparılması üçün onlara müvafiq köməkliklər göstərilməsi və hüquqi maarifləndirmə tədbirlərinin keçirilməsi nazirliyin diqqət mərkəzində saxlanılıb.

Qeyd edilib ki, Kəngərli rayonu üzrə hüquqi maarifləndirmə tədbirləri olaraq 2009-2013-cü illər ərzində 14-ə yaxın seminar-müşavirə keçirilib. Bu cür seminar-müşavirələrin əsas məqsədi bələdiyyələrin fəaliyyətinin əlaqələndirilməsi, yerli özünüidarəetmə orqanları arasında əməkdaşlığın gücləndirilməsi, bələdiyyə qanunvericiliyinin öyrənilməsi və tətbiq edilməsi, bələdiyyələrdə kargüzarlıq işlərinin qanunvericiliyin tələblərinə uyğun qurulmasından ibarət olub. Qanunvericiliyin tələblərindən irəli gələn vəzifələrin düzgün və dürüst yerinə yetirilməsi üçün mütəmadi olaraq tövsiyə xarakterli metodik vəsaitlər hazırlanaraq rayon ərazisində fəaliyyət göstərən bələdiyyələrə göndərilib. Nazirlik tərəfindən bütün bələdiyyələrə kargüzarlıq işinin düzgün qurulmasına köməklik göstərilməsi məqsədilə "Bələdiyyələrdə vətəndaşların müraciətlərinə baxılması işinin və kargüzarlığın təşkilinə dair" və "Bələdiyyələrdə mühasibat uçotunun təşkili" ilə bağlı kitablar paylanılıb. Kəngərli rayonunda fəaliyyət göstərən bələdiyyələrdə qanunvericiliyin təmin olunması və kargüzarlığın müvafiq normativ aktların tələblərinə uyğun aparılmasının öyrənilməsi məqsədilə 2009-2013-cü illər ərzində rayon İcra Hakimiyyəti ilə birlikdə 17 dəfə yoxlama keçirilib və aşkar olunan nöqsanların aradan qaldırılması üçün bələdiyyələrə hərtərəfli metodik köməkliklər göstərilib.

Vurğulanıb ki, seminar-müşavirələr, yoxlamalar, əməli köməkliklər zamanı edilən tövsiyə və təkliflərə baxmayaraq, bu gün rayon üzrə bələdiyyələrin bir neçəsinin fəaliyyətində hələ də nöqsanlar və çatışmazlıqlar qalmaqdadır. Təəssüflər olsun ki, verilmiş tövsiyə və tapşırıqlardan sonra bələdiyyələrdə təkrar olaraq araşdırmalar aparılarkən nöqsanların aradan qaldırılmadığı müəyyən edilib. Hər bir bələdiyyə qeyd olunanlardan nəticə çıxarmalı və fəaliyyətini qanunvericiliyin tələblərinə uyğun təşkil etməli, üzərinə düşən vəzifələri layiqincə yerinə yetirməlidir.

Sonda tədbir iştirakçılarını maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparılıb.

**Xəbərlər şöbəsi**

# Strateji hədəflərə doğru

## Naxçıvanın ərzaq təhlükəsizliyi tam təmin olunub

***Müasir dünyada ölkələrin ərzaq təhlükəsizliyi əsas strateji hədəflərdən sayılır. Çünki dünya əhalisinin getdikcə artması, bu səbəbdən təbii ehtiyatların getdikcə azalması və dünya düzəninin dəyişməsinə bu və ya digər dərəcədə təsir göstərən ictimai-siyasi proseslərin daim aktiv vəziyyətdə saxlanılması insanların təbii ehtiyacı olan qidalanmanı qlobal problemə çevirmişdir. Maraqlı, eyni zamanda ürəkağrıdıcı problemlərdən biri də odur ki, ümumsivilizasiya qapısına gündən-günə daha da yaxınlaşan qlobal dünyada hələ də aclıqdan əziyyət çəkən milyonlarla insan var. Bu sahədə rəsmi mənbə kimi Birləşmiş Millətlər Təşkilatının ərzaq təhlükəsizliyi barədə hesabatlarına nəzər yetirsək, görərik ki, son 3 ildə qeydə alınan belə insanların sayı dünya əhalisinin 12 faizini təşkil edib. Əlbəttə, bu, kifayət qədər ciddi bir rəqəmdir. Elə buna görə də inkişaf edən ölkələrdə problemin həll olunması istiqamətində müvafiq addımlar atılır, sənaye və kənd təsərrüfatı sahələrində ciddi tədbirlər görülür.***

**Azərbaycan Respublikasının Prezidenti İlham ƏLİYEV: *... Naxçıvanda sərgilənən yerli istehsal nümunələri ilə tanış olmuşam. O sərgidə Naxçıvanda son illər ərzində yaradılmış müəssisələrin məhsulları nümayiş etdirilirdi. Bu da çox sevindirici haldır. Çünki yerli istehsal artır. Naxçıvanın sənaye potensialı artır, ixrac artır və Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranmışdır. Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır.***







Hamımıza aydındır ki, ölkəmizdə müstəqilliyimizin bərpa edilməsindən sonra, bir çox sahələrdə olduğu kimi, ərzaq təhlükəsizliyinin təmin olunmasında əsas rol oynayan aqrar sahədə də yaranmış vəziyyət ürəkaçan deyildi. Ötən əsrin sonlarına doğru Azərbaycanın müxtəlif region və bölgələrində olduğu kimi, muxtar respublikamızda da uzun illər boyu zəhmətlə yaradılmış aqrar ixtisaslaşma məhv edilir, əkin sahələrinin çoxu aidiyyəti üzrə istifadə edilmirdi. Keçmiş SSRİ-nin ərzaq təhlükəsizliyində mühüm rol oynamış Azərbaycanda ötən əsrin səksəninci illərinin sonunda bir çox kənd təsərrüfatı sahələrinin – üzüm, pambıq, çay plantasiyalarının Moskvanın göstərişi əsasında ləğv edilməsinin strateji planlarımıza necə ziyan vurduğunu indi kiməsə sübut etməyə ehtiyac yoxdur. Hansı ki, bu aqrar ixtisaslaşmanın arxasında illərin zəhməti dayanırdı.

Azərbaycan müasir dünya tarixində nadir ölkələrdəndir ki, iyirmi ildən artıq davam edən müharibə vəziyyətində belə, iqtisadiyyatını gücləndirmiş, regional və beynəlxalq əhəmiyyətli layihələrə imza atmışdır. Və yaxud götürək Naxçıvan Muxtar Respublikasını. Regionda bütün iqtisadi layihələrin blokada şəraitində həyata keçirildiyinin bəzən fərqinə varmırıq. Yəni ərzaq təhlükəsizliyinin təmin edilməsi işi digər regionlardan fərqli olaraq, yaranmış mürəkkəb vəziyyətdə belə, lazımınca icra olunur. Bu sahədəki iqtisadi mənzərəni göz önünə gətirmək, düşünürük ki, yerinə düşər.

Məlum olduğu kimi, muxtar respublikanın ərzaq təhlükəsizliyinin təmin edilməsində Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 17 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "2008-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təminatına dair Dövlət Proqramı" mühüm əhəmiyyət kəsb edən dövlət sənədidir. Dövlət proqramının mahiyyəti vətəndaşların sağlam həyat tərzi üçün qəbul edilmiş normalara uyğun ərzaq məhsulları ilə təmin edilməsindən, idxaldan asılılığın minimuma endirilməsindən və bu sahədə gələcək üçün mükəmməl infrastruktur bazanın yaradılmasından ibarətdir. Dövlət proqramının ötən dövr ərzində uğurla yerinə yetirilməsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin regiona növbəti səfəri zamanı bir daha səsləndirilmişdir. Ölkə başçısı Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə demişdir: ***"... Dünən Naxçıvanda sərgilənən yerli istehsal nümunələri ilə tanış olmuşam. O sərgidə Naxçıvanda son illər ərzində yaradılmış müəssisələrin məhsulları nümayiş etdirilirdi. Bu da çox sevindirici haldır. Çünki yerli istehsal artır. Naxçıvanın sənaye potensialı artır, ixrac artır və Naxçıvanın artıq 100 milyon dollar səviyyəsində ixrac potensialı yaranmışdır. Naxçıvanda ərzaq təhlükəsizliyi məsələləri, demək olar ki, tam şəkildə öz həllini tapmışdır".***

Qeyd etmək lazımdır ki, əhalinin etibarlı ərzaq təminatı ilə bağlı məlum dövlət proqramından irəli gələn vəzifələrin layiqincə yerinə yetirilməsi, eyni zamanda "Naxçıvan Muxtar Respublikasının 2009-2013-cü illərdə sosial-iqtisadi inkişafı üzrə Dövlət Proqramı"nın uğurla başa çatdırılması nəticəsində muxtar respublikada əsas ərzaq məhsullarının istehsalında müsbət nəticələr əldə edilmiş, bazarda rəqabət səviyyəsinin yüksəlməsinə əlverişli şərait yaranmışdır. Həyata keçirilən tədbirlərin nəticəsidir ki, hazırda muxtar respublikada 346 növdə və 988 çeşiddə məhsul istehsal olunur. Yaradılmış müəssisələr əhalinin 106 növ ərzaq və 226 növ qeyri-ərzaq məhsullarına olan tələbatını tamamilə yerli istehsal hesabına ödəmək imkanına malikdir. Qeyd edilənləri son 10 ilin iqtisadi mənzərəsi ilə təsvir edək: 2003-2013-cü illərdə Ümumi Daxili Məhsul 8,4 dəfə, sənaye məhsulunun həcmi 49, kənd təsərrüfatı məhsullarının istehsalı 4,7 dəfə artmışdır.

Təbii ki, yuxarıda sadalanan statistik rəqəmlər muxtar respublikanın həm sənaye, həm də kənd təsərrüfatı potensialını ortaya qoyur. Əhalinin etibarlı ərzaq təhlükəsizliyi ilə bağlı yaradılmış bu potensial bazanın inkişafı bu gün də uğurla davam etdirilir. Unutmayaq ki, haqqında bəhs etdiyimiz ərzaq təhlükəsizliyi üzrə dövlət proqramının uğurlu icrasına bu və ya digər şəkildə yardım edən başqa layihələr də var. Məsələn, onlardan biri hal-hazırda icrası davam etdirilən "2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı"dır. Muxtar diyarın əlverişli iqlim xüsusiyyətləri, münbit torpaqları hələ orta əsrlərdən buranın dadlı meyvələri ilə tanınmasında böyük rol oynamışdır. Nəzərə almaq lazımdır ki, tarixin heç bir dövründə – istər mütərəqqi aqrar imkanların olmadığı orta əsrlərdə, istər sonrakı dövrlərdə, istərsə də sovetlər tərkibində olduğumuz zaman meyvəçilik və tərəvəzçiliyin inkişafı üçün diyarın mövcud potensialından lazımınca istifadə olunmamış, bu istiqamətdə yetərli addımlar atılmamışdır. Kənd təsərrüfatının adıçəkilən bu sahələrinin inkişaf etdirilməsi və buna strateji hədəf kimi yanaşılması yalnız son 18 ildə həyata keçirilən tədbirlər sayəsində mümkün olmuşdur. Rəqəmlərə diqqət edək: meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı dövlət proqramından irəli gələn vəzifələrin yerinə yetirilməsi nəticəsində ötən il 67 min tona yaxın tərəvəz, 58 min tondan çox meyvə və giləmeyvə tədarük olunmuşdur ki, bu da 1995-ci ildəki göstəricidən müvafiq olaraq 51,5 və 3 dəfə çoxdur. Ancaq unutmayaq ki, bu, son hədd deyil. Fəaliyyət funksiyasından asılı olmayaraq, muxtar respublikada müxtəlif müəssisə və təşkilatlar tərəfindən proqramın icrası yönündə atılan addımlar, müxtəlif meyvə bağlarının salınması bir daha bu işə kütləvi yanaşmanı ortaya qoyur. Yəni ağac əkib-becərmək, onu hasilə gətirmək bu diyarın hər bir sakininin təbiət (eyni zamanda dövlət proqramı) qarşısında borcuna çevrilmişdir. Təbiidir ki, məhsul əldə etməklə iş həll olunmur. Bu məhsul-



lardan əhalinin bütün fəsillərdə istifadəsi üçün indiyədək Naxçıvan şəhəri də daxil olmaqla digər bölgələrdə yerləşmək şərtilə 12 min ton tutuma malik 17 ədəd soyuducu anbar tikilərək istifadəyə verilmişdir. Meyvəçiliyin və tərəvəzçiliyin inkişafı ilə bağlı qəbul edilmiş dövlət proqramı eyni zamanda muxtar respublikada kənd təsərrüfatı məhsullarının bölgələr üzrə ixtisaslaşmasına şərait yaradır. Məlumdur ki, ərazilərin torpaq tərkibi və regionun çoxiqlimlilik xüsusiyyəti hər əkin növünə fərdi yanaşmanı və müvafiq xüsusiyyətləri nəzərə almağı tələb edir. Hazırda həyata keçirilən bu aqrar ixtisaslaşmanın bəhrələrini yaxın gələcəkdə görmək mümkün olacaqdır.

Bir maraqlı məqamı da oxucularımızla bölüşmək istərdim. İstər meyvəçilik və tərəvəzçiliyin inkişaf etdirilməsi, istərsə də ərzaq təhlükəsizliyi ilə bağlı qəbul edilmiş dövlət proqramları əhalinin iqtisadi rifahının təmin edilməsi ilə bərabər, həm də bazar iqtisadiyyatının istehlakçıya təqdim etdiyi biznes mədəniyyətini ortaya qoyur. Fikrimizi bir az da aydınlaşdıraq. Cari ilin yanvar ayının 31-də Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı ilə "2014-2015-ci illərdə Naxçıvan şəhərinin sosial-iqtisadi inkişafı üzrə Proqram" təsdiq edilmişdir. Proqramın müvafiq bəndində Naxçıvan şəhərində ixtisaslaşmış "Yaşıl Market" və "Fermer Mağazası"nın yaradılması nəzərdə tutulmuşdur. Etiraf edək ki, indiyədək Naxçıvan şəhərində bu cür ixtisaslaşmış kənd təsərrüfatı mağazaları mövcud olmamışdır. Bu mağazaların fəaliyyətə başlaması bizə nə vəd edir? Nəzərə alaq ki, bütün inkişaf etmiş şəhərlərdə kənd təsərrüfatı məhsullarının satıldığı bazarlarla yanaşı, mağazalar da fəaliyyət göstərir. Bu gün süd, pendir, göyərti, meyvə-tərəvəz almaq istəyən şəhər sakinləri bu məhsulları əldə etmək üçün yalnız günorta vaxtınadək bunları əldə etməlidirlər. Ərzaq mağazalarında satılan bu məhsulların seçim imkanlarının az olması sakinlərə xeyli problem yaradır. Digər tərəfdən, nəzərə alaq ki, gündən-günə inkişaf edən dünyada insanların vaxtı daha da az olur. Necə deyərlər, "təzə məhsulu yalnız bazardan, həm də sübh tezdən əldə etmək olar" məntiqi müasir biznes qaydalarına uyğun gəlmir. İstehlakçı üçün hər məhsul yeni, keyfiyyətli və əlçatan olmalıdır. Maraqlı tərəflərdən biri də odur ki, digər ölkələrdə bu layihələri sahibkarlar, bizdə isə dövlət həyata keçirir.

Bütün bu qeyd etdiklərimiz bir daha belə bir nəticəyə gəlməyimizə imkan verir ki, əhalinin etibarlı ərzaq təminatı istiqamətində həyata keçirilən tədbirlər bazar iqtisadiyyatının hərtərəfli inkişafı ilə bərabər, həm də muxtar respublikamızın strateji hədəflərə doğru inamla addımladığını göstərir.

**Səbuhi HƏSƏNOV**

# Yeni istehsal müəssisəsi yaradılır

***Muxtar respublikada iqtisadiyyatın dinamik inkişafı təmin olunmuş, sahibkarlıq subyektlərinin fəaliyyətinin stimullaşdırılması və genişləndirilməsinə dövlət maliyyə dəstəyi göstərilmiş, iş adamlarının normal fəaliyyəti üçün əlverişli biznes mühiti formalaşdırılmış, yeni istehsal və xidmət sahələri, idxaləvəzləyici və ixracyönümlü məhsullar istehsal edən emal və sənaye müəssisələri yaradılmışdır. Aparılan uğurlu islahatlar nəticəsində sənaye məhsulunun həcmi ilbəil artmış, muxtar respublikada istehsal olunan sənaye məhsulunun 93 faizə qədəri özəl sektorun payına düşmüşdür.***



Son illər yaradılan müəssisələrdən biri də Naxçıvan şəhərində fəaliyyət göstərən "Dekor Qrup" Məhdud Məsuliyyətli Cəmiyyətidir. Müəssisənin direktoru Ələddin Allahverdiyev bildirdi ki, özəl bölməyə, sahibkarlıq fəaliyyətinə göstərilən dövlət qayğısından bu müəssisə də bəhrələnmişdir. Xammal və hazır məhsulların ağırtonnajlı yük avtomobilləri ilə daşınması üçün daha əlverişli yerdə – Naxçıvan dairəvi avtomobil yolunun kənarında müəssisə üçün 15 min kvadratmetr torpaq sahəsi ayrılmışdır. 2013-cü ilin may ayından inşaat işlərinə başlanılmış, əraziyə elektrik, qaz, su və kanalizasiya xətləri çəkilmişdir. İnşaat işlərinin vaxtında və keyfiyyətlə aparılması üçün müəssisəyə təcrübəli mütəxəssislər cəlb olunmuş, 3 istehsal sexi, xammal və hazır məhsulların saxlanılması üçün anbar, inzibati bina, iaşə xidməti göstərilməsi üçün yeməkxana istifadəyə verilmişdir. Müəssisənin ətrafında abadlıq işləri aparılmış, asfalt-beton örtük salınmış, işıqlandırma sistemi quraşdırılmışdır.

Bu müəssisədə layihəyə uyğun olaraq, İtaliya, Almaniya və Türkiyə istehsalı olan müasir texnoloji avadanlıqlar quraşdırılacaq, laminat-mətbəx avadanlıqları, PVC akrelit parlaq panellər və melamin örtüklü plitələr istehsal olunacaq. Artıq laminat-mətbəx avadanlıqları istehsalı sahəsində kompüterlə idarəetmə mərkəzi ilə təmin olunmuş müasir texnoloji avadanlıqlar quraşdırılmış, istehsal prosesi avtomatlaşdırılmışdır. Yaxın günlərdə istifadəyə verilməsi nəzərdə tutulan yeni istehsal sahəsində keyfiyyətli məhsul istehsalı üçün əlverişli şərait yaradılmışdır. PVC akrelit parlaq panellər və melamin örtüklü plitələr istehsalı sahələrində isə mebel avadanlıqları istehsalında qabaqcıl təcrübəyə malik, dünyada məşhur olan İtaliyanın "Omma" şirkətinin avadanlıqları quraşdırılacaq. Bağlanmış müqaviləyə uyğun olaraq, may ayının sonundan dəzgahların idxalına başlanılacaq və həmin şirkətin mütəxəssisləri tərəfindən quraşdırılacaqdır.

Müəssisəyə xammal İtaliya, Almaniya, Koreya, Rumıniya və Türkiyə respublikalarından idxal olunacaq. Əvvəllər ölkəmizdə, o cümlədən muxtar respublikamızda fəaliyyət göstərən mebel istehsalı müəssisələrinə hazır materiallar xarici ölkələrdən idxal olunurdusa, bu müəssisənin fəaliyyətə başlaması ilə həmin problemlər aradan qaldırılacaq. İstehsal müəssisələri vaxtında və keyfiyyətli mebel materialları ilə təmin olunacaqdır.

Qeyd edək ki, yeni istehsal müəssisəsinin fəaliyyətə başlaması daxili bazarı yüksəkkeyfiyyətli məhsullarla təmin etməklə yanaşı, əhalinin məşğulluğunun təmin olunmasında da mühüm rol oynayacaqdır. İlkin olaraq müəssisədə 40-45, tam fəaliyyətə başlayandan sonra isə 70-80 nəfər daimi işlə təmin ediləcək. Müasir texnoloji avadanlıqlardan səmərəli istifadə etməyi bacaran ixtisaslı mütəxəssislərin hazırlanması məqsədilə müəssisədə çalışacaq işçilərin Türkiyə Respublikasında ixtisasartırma kurslarında iştirakı təmin olunmuşdur. Bu da imkan verəcək ki, istehsal prosesi yerli mütəxəssislər tərəfindən həyata keçirilsin.

Mebel materialları istehsal ediləcək bu müəssisə muxtar respublikamızda yeganə müəssisədir. Yeni müəssisədə istehsal olunan məhsullar daxili bazarın tələbatını tamamilə ödəməklə yanaşı, ölkəmizin digər regionlarına, İran İslam Respublikasına, Gürcüstan və Orta Asiya respublikalarına da ixrac olunacaqdır.

**Kərəm HƏSƏNOV**

“Muxtariyyət ili”

# Naxçıvan mədəniyyəti muxtariyyət illərində

*Naxçıvan Muxtar Respublikasının yaradılmasından 90 il ötür. Qədim tarixə, zəngin mədəniyyətə, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan Naxçıvan diyarı çətin, mürəkkəb və eyni zamanda şərəfli inkişaf və tərəqqi yolu keçmişdir. Ulu Naxçıvan torpağı həmişə özünün zəngin mədəniyyəti, ədəbiyyatı, incəsənəti və xalq yaradıcılığı ilə tariximizdə əhəmiyyətli rol oynamışdır. Naxçıvan Muxtar Respublikasının 90 illik tarixinə nəzər saldıqda görürük ki, diyarımızda mədəniyyətin və incəsənətin inkişafında qazanılan uğurlu nəticələr asanlıqla əldə edilməmişdir.*

**1924-1969-cu illər.** Bütün Azərbaycanda olduğu kimi, 1920-1924-cü illər Naxçıvan Muxtar Respublikasında da çətin və mürəkkəb dövr kimi tarixə düşmüşdür. Bu dövrdə Naxçıvanda geniş mədəniyyət şəbəkəsi olmadığından xalqın maariflənməsində, ziyalıların təşkilatlanmasında Naxçıvan teatrı mühüm rol oynayırdı. Naxçıvan Xalq Maarif Komissarlığının 8 fevral 1922-ci il tarixli əmri ilə Naxçıvan ölkəsində bütün teatr işlərini idarə etmək üçün Sənayeyi-nəfisə (incəsənət) şöbəsi yaratmaq qərara alınmışdır. Şöbəyə daxil olan üzvlərə isə təcili olaraq teatr işlərini idarə etmək üçün nizamnamə tərtib edilməsi tapşırılmışdı.

Qədim diyarda mədəniyyətin, folklorun, mədəniyyət abidələrinin öyrənilməsində 1925-ci ilin mart ayında yaradılıb 1928-ci ilədək fəaliyyətini davam etdirmiş Naxçıvanı Tədqiq və Tətəbbö (öyrənmə, araşdırma) Cəmiyyətinin də rolu qeyd olunmalıdır. Naxçıvan Muxtar Respublikasında mədəniyyət sisteminin dövlət tərəfindən tənzimlənməsinin təşkilatlanması uzun bir yol keçmişdir. Azərbaycan SSR Xalq Komissarları Sovetinin 27 aprel 1937-ci il tarixli qərarına əsasən, 1 iyuldan 3 ştat vahidi ilə Naxçıvan İncəsənət İşləri üzrə Müvəkkillik yaradılmışdır. Naxçıvan MSSR Nazirlər Sovetinin 30 mart 1946-cı il tarixli qərarı ilə Naxçıvan MSSR Nazirlər Soveti yanında İncəsənət İşləri İdarəsi yaradılmış və təşkilat nazirliyə çevrilənədək çətin bir yol keçmişdir.

Naxçıvan MSSR Ali Sovetinin 18 aprel 1953-cü il tarixdə keçirilən III çağırış 3-cü sessiyasında Naxçıvan MSSR Nazirlər Soveti yanında Mədəniyyət Müəssisələri Komitəsi, Radio Məlumat Komitəsi, İncəsənət İşləri İdarəsi və Kinolaşdırma İdarəsi birləşdirilərək Naxçıvan MSSR Mədəniyyət Nazirliyi yaradılmışdır.

30-cu illərdə bütün ölkədə həyata keçirilməsinə başlanılan mədəni inqilab dalğası Naxçıvan Muxtar Respublikasında da hiss olunurdu. Bolşeviklər ölkədə geniş ideoloji mədəniyyət şəbəkəsi yaratmağa çalışırdılar. Əhali arasında maarifçilik ideyalarının, mədəniyyətin yayılmasında 1883-cü ildə yaradılan Naxçıvan teatrı yenə də mühüm rol oynayırdı.

Naxçıvanda yaradılan qadınlar klubunda bədii özfəaliyyət dram dərnəyi təşkil olunur, musiqi, ədəbiyyat, sənət məsələlərindən söhbət açılırdı. 1927-ci ildə Naxçıvana gələn Rza Təhmasib, Sidqi Ruhulla, Abbas Mirzə Şərifzadə və başqa sənətkarlar Naxçıvanda mədəniyyətə, teatra, kinoya və musiqiyə marağı daha da artırmışdılar.

Naxçıvanda musiqi mədəniyyətinin inkişafında vaxtilə burada yaşamış Zülfüqar Hacıbəyovun, sonralar isə onun qardaşı Üzeyir Hacıbəylinin böyük xidmətləri olmuşdur. Üzeyir Hacıbəyli 1937-ci ildə Naxçıvandan SSRİ Ali Sovetinin Millətlər Sovetinə deputat seçilmişdi. 1937-ci ildə Üzeyir bəyin təşəbbüsü ilə Naxçıvanda ilk musiqi məktəbi açılmış, dahi bəstəkar məktəbə “Berlin” markalı piano və not kitabları hədiyyə etmişdir. Naxçıvan Mərkəzi İcraiyyə Komitəsinin 23 avqust 1937-ci il tarixli qərarı ilə yaradılan uşaq musiqi məktəbində muxtar respublikanın müxtəlif rayonlarından cəlb olunmuş şagirdlər təhsil alırdılar. Bu məktəb muxtar respublikada yeganə uşaq musiqi məktəbi kimi 1965-ci ilədək fəaliyyət göstərmişdir. 1965-ci ildə Ordubad Rayon Uşaq Musiqi Məktəbi, 1967-ci ildə Culfa Rayon Uşaq Musiqi Məktəbi, 1968-ci ildə isə Şərur Rayon Uşaq İncəsənət Məktəbi yaradılmışdır.

1940-1941-ci illərdə tanınmış rəssam Şamil Qazıyevin direktoru olduğu Naxçıvan Rəssamlıq Məktəbində bu sənətin sirləri gənclərə öyrədilirdi.

Muxtariyyətin ilk illərində yaradılan “Qızıl qələmlər” cəmiyyətində birləşən gənc yazıçı və şairlər Əyyub Abbasov, Məmmədhüseyn Təhmasib, Müzəffər Nəsirli, Hüseyn Əzim, Məmmədəli Tarverdiyev, Əvəz Sadıq, Nağı Nağıyev, Məmməd Əkbər və başqalarının ilk qələm təcrübələri bu dövrdə “Şərq qapısı” qəzetində müntəzəm çap edilirdi. Xalq yazıçıları Mirzə İbrahimov, Əli Vəliyev, Süleyman Rəhimov və başqalarının bu illərdə Naxçıvanda yaşayıb-yaratması bu diyarda ədəbiyyat və incəsənətin inkişafına dəyərli töhfələr vermişdir.

Naxçıvanda ilk muzey 1924-cü ildə tarix-etnoqrafiya muzeyi kimi yaradılmışdır. Naxçıvan şəhər sakinləri Balabəy Əlibəyov, Mirbağır Mirheydərzadə və başqa ziyalılar qədim diyarımızda muzey yaradılması işinin ilk təşkilatçıları olmuşlar. 1932-ci ildə Naxçıvan Tarix və Ölkəşünaslıq Muzeyinə çevrilən bu mədəniyyət müəssisəsi yenidən qurulmuşdur. Muzey müəyyən illərdə Bəhruz Kəngərlinin adını daşımışdır. Keçən əsrin 60-cı illərinin sonundan isə Dövlət Tarix Muzeyi kimi fəaliyyət göstərir. 1966-cı ilə qədər bu muzey Naxçıvan MSSR-də yeganə muzey kimi fəaliyyət göstərmişdir. Azərbaycan SSR Nazirlər Sovetinin 1966-cı il tarixli qərarına müvafiq olaraq, 1967-ci il iyunun 12-də Naxçıvan şəhərində Ədəbiyyat Muzeyi açılmışdır.

Muxtariyyətin ilk illəri kitabxana işi, kitabxana şəbəkələrinin yaranması ilə əlamətdardır. Geniş kitabxana şəbəkələrinin yaradılmasına məhz bu illərdə başlanılmışdır. Hələ 1922-ci ildə Xalq Maarif Komissarlığı tərəfindən təsis edilən Naxçıvan Şəhər Kitabxanasının bazasında 1930-cu ildə Naxçıvan Respublika Kitabxanası yaradılmışdır. 1933-cü ildə respublika kitabxanasının yanında qiraət salonu təşkil edilmiş, kitabxana Naxçıvan şəhəri ilə bərabər, ətraf kəndləri də əhatə etmişdir. 1953-cü ildə Naxçıvan Respublika Kitabxanasına görkəmli yazıçı Məmməd Səid Ordubadinin adı verilmişdir. 1960-cı ildə kitabxana hazırda fəaliyyət göstərdiyi binaya köçürülmüşdür. 1972-ci ildə Məmməd Səid Ordubadinin 100 illik yubileyi təntənə ilə qeyd edilərkən kitabxananın qarşısında ədibin büstünün açılış mərasimi olmuşdur. 1935-1965-ci illərdə respublika kitabxanası nəzdində Uşaq şöbəsi də fəaliyyət göstərmişdir. Bu şöbənin bazasında 1965-ci il yanvarın 1-də Uşaq Kitabxanası yaradılmış, 1978-ci ildə isə kitabxanaya görkəmli şair Adil Babayevin adı verilmişdir.

Qədim diyarda xalq yaradıcılığı ilə bağlı görülən müəyyən işləri qeyd etmək lazımdır. Bu dövrdə muxtar respublikanın əhalisi xalça sənətini, xalq rəqslərini, folklorumuzu yaşatmaq üçün bir sıra işlər həyata keçirmişdir. Şərur yallı kollektivinin bu illərdəki fəaliyyəti diqqəti xüsusilə cəlb edir. 1929-cu ildə yaradılan kollektiv 1936-cı ildə böyük səhnəyə qədəm qoymuşdur. 1938-ci ildə yallı kollektivi Moskvada keçirilən Azərbaycan ədəbiyyatı və incəsənəti ongünlüyündə iştirak etmişdir. Bu kollektiv Vətəndən uzaqlarda ilk uğurlu çıxışı ilə diqqəti cəlb edir. Sonrakı illərdə, yəni 1970-ci ildən sonra isə kollektivin xarici ölkələrə səfərləri daha intensiv xarakter daşımışdır.

1955-ci ildə Naxçıvan Dövlət Radio Komitəsinin nəzdində xalq çalğı alətləri ansamblı yaradılır. 1959-cu ildə isə 30 nəfərdən ibarət dövlət konsert briqadası təşkil olunur. 1963-cü ildə bu musiqi kollektivinə Naxçıvan Dövlət “Araz” Mahnı və Rəqs Ansamblı adı verilir. Bu dövrdə naxçıvanlı bəstəkar və musiqiçilərdən Nəriman Məmmədov, Ramiz Mirişli, Məmməd Məmmədov, Məmməd Ələkbərov, Rəşid Məmmədov, Səfər Rəcəbov, Vahid Axundov ilk musiqi əsərlərini yaradırlar.

1964-cü ildə Naxçıvan teatrı Musiqili Dram Teatr statusu alır və 1966-cı ildən C.Məmmədquluzadənin adını daşıyır. 1964-cü ildə Naxçıvan Dövlət Musiqili Dram Teatrının yeni binası istifadəyə verilir və Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının 40 illiyi bu binada təntənə ilə qeyd olunur.

**1969-1987-ci illər.** Naxçıvan Muxtar Respublikasında da mədəniyyətin inkişafı Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin adı ilə bağlıdır. Ulu öndərin rəhbərliyi ilə ötən əsrin 70-ci illərindən başlayaraq muxtar respublikada mədəniyyət müəssisələrinin şəbəkəsi genişləndirilmiş, mədəniyyət sahəsində yüksəksəviyyəli kadrların hazırlanması istiqamətində genişmiqyaslı tədbirlər həyata keçirilmişdir. Dahi şəxsiyyət mədəniyyətin inkişafının mühüm əhəmiyyət kəsb etdiyini bildirərək deyirdi: ***“Xalq bir çox xüsusiyyətləri ilə tanınır, sayılır və dünya xalqları içərisində fərqlənir. Bu xüsusiyyətlərdən ən yüksəyi, ən böyüyü mədəniyyətdir”.***

Ötən əsrin 70-80-ci illərində respublikamızda tarix-diyarşünaslıq, xatirə, ev-muzeylərinin yaradılması, onların maddi-texniki bazasının möhkəmləndirilməsi istiqamətində mühüm tədbirlər həyata keçirilmişdir. Məhz bu illərdə muxtar respublikanın Ordubad, Culfa, Şərur, Şahbuz rayonlarında tarix-diyarşünaslıq muzeyləri yaradılmışdır.

Ümummilli lider Heydər Əliyevin ölkəmizə rəhbərliyinin birinci dövründə muxtar respublikanın bölgələrində yeni muzeylər yaradılmış, Məmməd Səid Ordubadinin ev-muzeyi (1972), Yusif Məmmədəliyevin ev-muzeyi (1975), Hüseyn Cavidin ev-muzeyi (1981), Cəmşid Naxçıvanskinin ev-muzeyi (1981) və başqa muzeylər məhz bu illərdə fəaliyyətə başlamışdır. Naxçıvan Dövlət Rəsm Qalereyası 1982-ci ildə qapılarını tamaşaçılarının üzünə açmışdır. 1987-ci ildə isə Şərur rayonundakı Cəlilkənddə C.Məmmədquluzadənin xatirə muzeyi yaradılmışdır.

Ötən əsrin 70-ci illərindən başlayaraq uşaq musiqi məktəblərinin sayı əsaslı surətdə artmışdır. 1976-cı ildə Naxçıvan şəhərində, Babək rayonunda, Ordubad rayonunun Vənənd kəndində incəsənət məktəbləri, 1981-ci ildə Babək rayonunun Nehrəm, 1982-ci ildə Cəhri kəndlərində, 1982-ci ildə Şərur rayonunun Yuxarı Daşarx, Çərçiboğan, Culfa rayonunun Bənəniyar kəndlərində, indiki Kəngərli rayonunun Qıvraq qəsəbəsində uşaq musiqi məktəbləri yaradılmışdır.

Naxçıvanda musiqi mədəniyyətinin inkişafı üçün vacib işlər həyata keçirilmişdir. 1978-ci ildə Azərbaycan Bəstəkarlar Təşkilatının Naxçıvan şəhərində keçirilən səyyar plenumunda Naxçıvan Bəstəkarlar Təşkilatı yaradılmışdır. Təşkilat Naxçıvanda xalq mahnı və rəqslərinin toplanması, nota alınması, aşıq yaradıcılığının tədqiqi və musiqi janrlarının inkişafı, eləcə də digər yaradıcılıq məsələləri sahəsində əhəmiyyətli tədbirlər həyata keçirir. 1975-ci ilin 28 aprelində Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə Naxçıvanda orta ixtisas musiqi məktəbi yaradılmışdır. Hazırda bu məktəb Naxçıvan Musiqi Kolleci adı ilə fəaliyyətini davam etdirir.

1971-ci ildə isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə qədim diyarımızda daha bir yaradıcılıq təşkilatı olan Rəssamlar Birliyi fəaliyyətə başlayır.

1974-cü ildə Naxçıvan MSSR-in yaradılmasının 50 illiyi yüksək səviyyədə qeyd olunur. Dahi rəhbər Heydər Əliyev muxtar respublikaya gəlir. Yarıməsrlik yubiley ili ilə bağlı muxtar respublikanın bir qrup incəsənət xadimi fəxri adlara layiq görülür.

1983-cü ildə muxtar respublikanın həyatında daha bir mühüm mədəniyyət hadisəsi baş vermişdir. Həmin ildə Naxçıvan Dövlət “Araz” Mahnı və Rəqs Ansamblının bazasında Naxçıvan Dövlət Filarmoniyası yaradılmışdır.

Ötən əsrin 70-80-ci illərində Naxçıvan Muxtar Respublikasında “Şərur” xalq yallı kollektivinin uğurları da qeyd olunmalıdır. 1970-ci ildə “Şərur” Xalq Yallı Ansamblı Almaniya Demokratik Respublikasında keçirilən Ümumdünya Folklor Festivalında iştirak etmək üçün dəvət alır və SSRİ-ni təmsil edərək festivalın laureatı olur. Həmin il kollektiv Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanına layiq görülür. 1972-ci ildə isə Moskva televiziyası kollektivin çıxışlarını lentə alaraq ümumittifaq tamaşaçılarına göstərir. 1974-cü ildə Naxçıvan MSSR-in 50 illik yubileyi münasibətilə keçirilən şənliklərdə iştirakına görə ansambl Naxçıvan MSSR Ali Soveti Rəyasət Heyətinin Fəxri Fərmanı ilə təltif edilir.

1977-ci ildə yallı ansamblı Moskvada keçirilən əməkçilərin Ümumittifaq Xalq Yaradıcılığı Festivalında iştirak edir və laureat adını qazanır. Kollektivin 33 nəfər üzvünün hər birinə kiçik qızıl medallar təqdim olunur. Ansamblın özünə isə böyük qızıl medal verilir. 1980-ci ildə kollektiv Macarıstanda keçirilən Azərbaycan Respublikasının Xalq Təsərrüfatı Nailiyyətləri Sərgisində iştirak edir. Sərginin açılış konsertində iştirak edən yallı ansamblı Macarıstanın paytaxtı Budapeşt, həmçinin Debrecen və başqa şəhərlərdə uğurla çıxış edir. 1984-cü ildə “Şərur” Xalq Yallı Ansamblı Polşada keçirilən XI Beynəlxalq Folklor Festivalında iştirak edir və festivalın laureatı olur.

1982-ci ildə görkəmli dramaturq Hüseyn Cavidin cənazəsi Uzaq Sibirdən Naxçıvana gətirilərək böyük xalq sevgisi ilə dəfn edilmiş və onun məzarı üzərində əzəmətli məqbərənin tikilməsi qərara alınmışdır. Bu fakt keçmiş Sovetlər Birliyi məkanında repressiya olunmuş şəxsə dövlət səviyyəsində göstərilmiş münasibətin yeganə cəsarətli nümunəsidir. 1982-ci ilin 6 noyabrında – Naxçıvanda Cavid Poeziya Teatrının açılışında ümummilli lider Heydər Əliyev də iştirak edir və geniş nitq söyləyir.

1987-ci ildə Tbilisi şəhərində keçirilən Ümumittifaq Teatr Festivalında Naxçıvan teatrının hazırladığı Sofoklun “Elektra” tamaşası diplomla təltif edilir. Bu uğurlu tamaşa Moskva televiziyasının əməkdaşları tərəfindən lentə alınır və ümumittifaq televiziyası ilə nümayiş etdirilir.

***(ardı var)***

**Əli RZAYEV**
***Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin əməkdaşı***

## Naxçıvanın muxtariyyət tarixi ilə bağlı daha bir konfrans



“Naxçıvanın muxtariyyəti tarixi nailiyyətdir” mövzusunda elmi konfrans Yeni Azərbaycan Partiyası (YAP) Naxçıvan Şəhər Təşkilatı, AMEA Naxçıvan Bölməsi müəssisədənkənar ərazi ilk partiya təşkilatının birgə təşkilatçılığı ilə keçirilib. Konfransı giriş sözü ilə açan AMEA Naxçıvan Bölməsinin sədri, akademik İsmayıl Hacıyev deyib ki, Naxçıvan Muxtar Respublikasının yaradılması Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsidir. Bunu nəzərə alan Azərbaycan Prezidenti İlham Əliyev 2014-cü il yanvarın 14-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında Sərəncam imzalayıb, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri Vasif Talıbov isə dördüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin səkkizinci sessiyasında 2014-cü ili Naxçıvan Muxtar Respublikasında “Muxtariyyət ili” elan edib.

Vurğulanıb ki, Naxçıvanın muxtar respublika statusu bu bölgənin 90 illik tarixi taleyində, onun ərazisinin qorunub saxlanılmasında və təhlükəsizliyinin təmin edilməsində çox mühüm rola malik olub. Bu illərdə Naxçıvan Muxtar Respublikası Azərbaycanın iqtisadi qüdrətinin yüksəlməsinə və hərtərəfli inkişafına da öz layiqli töhfələrini verib. Ölkə Prezidentinin dediyi kimi: ***“Milli istiqlaliyyət yolunda Naxçıvanın atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən rəğbətlə qarşılanmış, respublikada cərəyan edən ictimai-siyasi proseslərə öz müsbət və həlledici təsirini göstərmişdir. Naxçıvan Muxtar Respublikası bu gün milli dövlət quruculuğu prosesinin fəal iştirakçısı olub, ölkəmizin iqtisadi qüdrətinin artırılması və intellektual potensialının gücləndirilməsinə dəyərli töhfələr verir”.***

Elmi konfransda AMEA Naxçıvan Bölməsi YAP müəssisədənkənar ərazi ilk partiya təşkilatının sədri, filologiya üzrə fəlsəfə doktoru Ramiz Qasımovun “Naxçıvanın inkişaf dinamikasının təməlində muxtariyyət statusu dayanır”, bölmənin Tarix, Etnoqrafiya və Arxeologiya İnstitutunun Etnoqrafiya şöbəsinin müdiri, tarix üzrə fəlsəfə doktoru, dosent Asəf Orucovun “Naxçıvanın muxtariyyəti tarixi nailiyyət kimi”, Təbii Ehtiyatlar İnstitutunun İqtisadiyyat şöbəsinin müdiri, iqtisad üzrə fəlsəfə doktoru Cavadxan Qasımovun “Muxtariyyət dövründə Naxçıvanın sosial-iqtisadi inkişafı”, YAP Naxçıvan Şəhər Təşkilatının sədri, tarix üzrə fəlsəfə doktoru, dosent Elman Cəfərlinin “Beynəlxalq təcrübədə muxtariyyətlər və Naxçıvan muxtariyyəti” mövzularında elmi məruzələri dinlənilib.

Məruzələrdə qeyd olunub ki, beynəlxalq Moskva və Qars müqavilələri Naxçıvan diyarının tarixi taleyini, onun Azərbaycanın tərkibində muxtar respublika kimi qalmaq imkanını reallaşdırıb. Blokadanın çətinliklərinə baxmayaraq, son 18 ildə muxtar respublikada böyük quruculuq proqramı gerçəkləşdirilib, Naxçıvan yeni inkişaf mərhələsinə qədəm qoyub, bütün sahələrdə mühüm nailiyyətlər əldə olunub. Dövlət başçısı Naxçıvana son səfəri zamanı da burada görülən işləri yüksək qiymətləndirib.

**Elnur KƏLBİZADƏ**

# Paralimpiyaçıların uğurları artır

***Böyük idmançılar bütün dünyaya məxsusdurlar. Dünyada tanınmış məşhur idmançılar isə onlara aid edilən bu deyimi daim bəşəri düşüncə olaraq yaddaşlara həkk etməyə çalışmışlar. Azarkeş kimi izlədiyimiz idmançıların bizə bəxş etdikləri sevinc hisslərini bəzən heç bir şeyə dəyişmək istəmirik. Və bu sevinc, qazanılan uğur tarixə yazılır. Xüsusilə paralimpiyaçıların əzmkarlıqla əldə etdikləri uğur, bu uğura görə yaşanan sevinc tarixin yaddaşına əbədi həkk olunur.***





### *Uğurlu inkişaf*

Müasir idmanda paralimpiya hərəkatı geniş vüsət almışdır. Dünyada bu hərəkatın başlama tarixi Böyük Britaniyanın Elsberri şəhərindəki Stok Mandevil xəstəxanasının neyrocərrahı Lüdviq Qoutmanın təşəbbüsü ilə 1948-ci ildə Londonda keçirilən Olimpiya Oyunlarının açılış mərasimində ilk dəfə kolyaskalı əlillər arasında Böyük Britaniyanın 1-ci milli yarışlarının keçirilməsi ilə hesablanır.

1960-cı ildə Romada ilk dəfə Paralimpiya Oyunları keçirilmiş və 23 ölkənin 400 idmançısı bu mötəbər yarışda iştirak etmişdir. 1988-ci ildə Seul Yay Oyunları və 1992-ci il Albervil Qış Oyunlarından etibarən Paralimpiya Oyunlarının Olimpiya Oyunları ilə eyni yerdə və eyni ildə keçirilməsi qərara alınmışdır. 2000-ci il Sidney Yay Paralimpiya Oyunlarında 127 ölkədən 4000 idmançı altı əlillik qrupunda, 18 idman növündə təmsil olunmuşdur ki, bu fakt Beynəlxalq Paralimpiya Hərəkatı tarixində rekord göstərici kimi tarixə düşmüşdür.

Azərbaycanda Milli Paralimpiya Komitəsi 1996-cı il fevral ayının 9-da fəaliyyətə başlamış və həmin gün Milli Paralimpiya Komitəsinin təsis konqresi keçirilmişdir. Bundan sonra ulu öndər Heydər Əliyevin diqqət və qayğısı ilə bu hərəkat respublikada təşəkkül tapmağa başlamışdır.

Məhdud fiziki imkanlı insanların idmanla məşğul olması, idman yarışlarında, beynəlxalq turnirlərdə yüksək nailiyyətlər əldə etməsi qürurverici haldır. Bu, onların bir tərəfdən nə qədər iradəli olduqlarını, digər tərəfdən isə məhdud fiziki imkana baxmayaraq, cəmiyyətdə öz fəaliyyətlərini göstərmək üçün nə qədər əzmkar olduqlarını göstərir. Belə insanlar – idmançılar cəmiyyətdə böyük hörmətə, böyük şərəfə layiqdirlər. Azərbaycanda paralimpiyaçılarımızın bu cəsarəti onu göstərir ki, ölkə gəncləri, idmançıları böyük istedada, potensiala malikdirlər. Və bu gəncliyin, xüsusilə məhdud fiziki imkanlı gənclərin istedadlarının üzə çıxarılmasına ölkəmizdə böyük diqqət və qayğı göstərilir, onların beynəlxalq yarışlarda uğur qazanmalarına stimul olan məqsədyönlü tədbirlər həyata keçirilir.

Son on ildə ölkə Prezidenti cənab İlham Əliyevin həyata keçirdiyi uğurlu idman siyasəti nəticəsində paralimpiyaçılarımız xeyli uğurlar qazanmışlar. İlk dəfə 1996-cı ildə Atlanta Paralimpiya Oyunlarında iştirak etmiş paralimpiyaçılarımız 2000-ci ildə iki medal qazanmışlar. Son on ildə daha uğurlu nəticələr əldə edən idmançılar 2004 Afina olimpiadasında iki qızıl, bir gümüş və bir bürünc medal olmaqla, dörd medala sahib olmuşlar. 2008-ci ildə Pekində təşkil olunan Paralimpiya Oyunlarında Azərbaycan paralimpiyaçıları müsbət ənənəni davam etdirmiş, 18 idmançıdan ikisi qızıl, üçü gümüş və beşi bürünc olmaqla, 10 medala layiq görülmək kimi böyük nəticə əldə etmişlər. Sonuncu London Paralimpiya Oyunlarında isə 21 idmançı ilə təmsil olunan paralimpiyaçılardan ibarət milli komandamız 4 qızıl, 5 gümüş, 3 bürünc medalla Azərbaycanın adını ölkə sıralamasında 27-ci yerə yazdırmağı bacarmışdır. Beləliklə, cənab İlham Əliyevin ölkəmizə 10 illik rəhbərliyi dövründə əlil idmançılara olan dövlət qayğısının daha da artırılması nəticəsində digər idmançılar kimi, fiziki imkanları məhdud idmançılarımız da beynəlxalq yarışlarda, eləcə də Paralimpiya Oyunlarında uğurla çıxış edərək, bayrağımızı dünyanın idman arenalarında dalğalandıraraq Azərbaycanın idman ölkəsi kimi dünyaya tanıdılmasına öz layiqli töhfələrini vermişlər.

### *Naxçıvan Muxtar Respublikasında idmançılara göstərilən qayğı*

Ölkə başçısının uğurlu idman siyasəti Naxçıvan Muxtar Respublikasında da öz bəhrəsini verməkdədir. Belə ki, 2006-cı ildən muxtar respublikada fəaliyyətə başlayan Paralimpiya Federasiyası 7 il ərzində bir çox nailiyyətlərə imza atmışdır. London Paralimpiya Oyunlarında iştirak edən Naxçıvan idman məktəbinin yetirməsi Hüseyn Həsənov ölkəmizə bürünc medal qazandırmışdır.

Muxtar respublikada məhdud fiziki imkanlı idmançılar üçün hərtərəfli şərait yaradılmış, Paralimpiya Federasiyası müxtəlif idman qurğuları və avadanlıqları ilə təmin edilmişdir. Federasiyanın sədr müavini Elçin Nəzərəliyevlə ötən il keçirilən yarışlar barədə danışdıq: "2013-cü ildə muxtar respublikada fiziki cəhətdən məhdud insanlar üçün müxtəlif idman növləri üzrə yarışlar təşkil edilmişdir. Fevral ayında İlham Əliyev adına Olimpiya-İdman Kompleksində paralimpiyaçılar arasında 2 çəki dərəcəsində (70 kiloqramadək, 70 kiloqramdan yuxarı) armrestlinq idman növü üzrə Naxçıvan Muxtar Respublika birinciliyi keçirilmişdir. Bu yarışda müxtəlif kateqoriyadan olan 20 məhdud fiziki imkanlı idmançı iştirak etmiş və fərqlənən idmançılara hədiyyələr verilmişdir. Bundan başqa, ötən il iyulun 24-də İlham Əliyev adına Olimpiya-İdman Kompleksində paralimpiyaçılar arasında futzal idman növü üzrə muxtar respublika birinciliyi təşkil edilmişdir.

İyul ayında Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası tərəfindən muxtar respublikamızda paralimpiyaçılar arasında qolbol idman növünün formalaşdırılması məqsədilə Azərbaycan Milli Paralimpiya Komitəsinin iki məşqçisi muxtar respublikaya dəvət olunmuşdur".

"Federasiya tərəfindən təşkil olunan yarışlar təkcə Naxçıvan şəhərində deyil, muxtar respublikanın digər rayonlarında da keçirilmişdir", – deyən Elçin Nəzərəliyev bildirdi ki, 2013-cü ilin aprel ayında Şərur Olimpiya-İdman Kompleksində paralimpiyaçılar arasında stolüstü tennis üzrə muxtar respublika birinciliyi keçirilmişdir. Yarışda müxtəlif kateqoriyadan olan 20 sağlamlıq imkanları məhdud idmançı iştirak etmişdir. May ayında isə elə bu kompleksdə keçirilən və ümummilli lider Heydər Əliyevin 90 illik yubileyinə həsr edilən paralimpiya idman festivalı maraqla qarşılanmışdır. Festivalın keçirilməsi ilə əlaqədar Bakı şəhərindən Naxçıvan Muxtar Respublikasına 77 nəfər dəvət olunmuşdur ki, onlardan 10 nəfəri Milli Paralimpiya Komitəsinin heyət üzvü, 52 nəfəri idmançı, 12 nəfəri məşqçi, 3 nəfəri isə hakim olmuşdur. Belə turnirlər analoji olaraq Babək, Şahbuz və Culfa rayonlarında da təşkil edilmişdir. Bununla yanaşı, 3 dekabr – Beynəlxalq Əlillər Günü münasibətilə də Naxçıvan Muxtar Respublikasında turnir təşkil olunmuşdur.

Federasiya rəsmisi onu da əlavə etdi ki, 24 iyul 2013-cü il tarixdə İlham Əliyev adına Olimpiya-İdman Kompleksində paralimpiyaçılar arasında futzal idman növü üzrə muxtar respublika birinciliyi keçirilmişdir. Birincilikdə hər biri 5 nəfərdən ibarət 8 komanda mübarizə aparmışdır.

16-17 noyabr tarixlərində Ağsu şəhərində keçirilən pauerliftinq üzrə VII açıq Azərbaycan çempionatında muxtar respublikamızın paralimpiyaçılarından ibarət komandası iştirak etmiş, idmançılarımız çempionatdan medallarla qayıtmışlar. Belə ki, ağırlıqqaldırma idman növü üzrə mübarizə aparan təmsilçilərimizdən Telman Şirinov 65 kiloqram çəkidə, Eldar Əliyev isə 88 kiloqram çəkidə üçüncü yerə layiq görülmüşlər.

Bütün bunlar onu göstərir ki, 7 illik fəaliyyəti dövründə Naxçıvan Muxtar Respublikası Paralimpiya Federasiyası bir çox uğurlara imza atmışdır. Bu da muxtar respublikada məhdud fiziki imkanlı idmançılar üçün yaradılan hərtərəfli şərait nəticəsində mümkün olmuşdur.

✍ **Ceyhun MƏMMƏDOV**

***Pinəçilik Azərbaycanda qədim sənət növlərindən biridir. Əksər halda bu peşənin davamçıları ya pinəçilərin övladları, ya da qohumları olublar. Vaxtilə bu peşə sahiblərinin Naxçıvan şəhərinin az qala hər küçəsində bir dükanı var idi. Həmin dövrlərdə şəhərin pinəçiləri adla tanınardılar. Ancaq son illər Naxçıvan şəhərində, eləcə də kəndlərdə yaxşı pinəçi tapmaq müşkülə çevrilib. Biz də qərara gəldik ki, Naxçıvan şəhərində ayaqqabı təmiri dükanı tapıb bu sahədəki durğunluğun səbəbini ustaların öz dilindən eşidək. Belə ustalardan biri pinəçi İlqar usta öz müştərilərini Ş.İ.Xətai küçəsindəki kiçik bir köşkdə qarşılayır. İçəridə pinəçi dükanına xas mənzərə hökm sürür. Yorğun, zəhmətkeş çəkməçi ayaqqabıları təmir etməklə məşğuldur. Onunla söhbət zamanı müşahidə etdik ki, İlqar usta həm də maraqlı həmsöhbətdir:***

# Sadə peşə sahibi ilə söhbət

***– Deyirlər ki, pinəçilik peşəsi unudulur. Bəs sizin fikriniz nədir?***

– 30 ildir, ayaqqabı təmiri ustasıyam, ayaqqabı tikirəm. Rəhmətlik atam da pinəçi idi, Naxçıvan şəhərində adla tanınardı. Mən də bu peşəni atamın yanında öyrənmişəm. O vaxtlar yaxşı qazanc olduğu üçün atam məni həvəslə öyrədirdi və deyirdi ki, ömürlük peşədir. Ancaq indi heç kim uşağının çəkməçi olmasını istəmir. Sovet dövründə öyrənməyə gələn gənclər çox olurdu. Ancaq onlar da sonradan bu peşəni işlətmədilər. İndi heç kim ayaqqabı düzəltdirmir. Çünki ayaqqabını düzəltdirməkdənsə, insanlar gedib təzə ayaqqabı alırlar. Bu da əhalinin yüksək həyat tərzindən, rifah halının yaxşılaşdığından, gəlirlərinin çoxaldığından xəbər verir. Ona görə də pinəçilərə ehtiyac qalmayıb.

***– Əsl pinəçinin qollarının həmişə ağrıması qənaəti doğrudurmu?***

– Bu peşə səbir və zəhmət tələb edir. Ona görə də pinəçilərin həmişə qolları ağrıyır. Bu, bizim peşə xəstəliyimizdir. Kənardan baxanlara asan gələ bilər. Ancaq pinəçi olmaq asan iş deyil. Onu da deyim ki, köhnə pinəçilər öz işlərinə məsuliyyətlə yanaşırdılar. İndikilər isə keyfiyyətsiz materiallardan ayaqqabıya daban vururlar. 10 gündən sonra isə ayaqqabı yenidən sıradan çıxır. Türkiyədən gətirilən ayaqqabı altının qiyməti 8-10 manatdır. Dabanlar 4-5, digər materiallar isə 3-5 manatadır. Əlavə təmir pulu da üstünə gələndə bu qiymət müştəriyə sərf eləmir.

***– İndi hər yer ucuz ayaqqabılarla doludur. Ayaqqabı tikmək üçün sifariş alırsınızmı?***

– Ayağında qüsuru olanlar, kiçik və ya böyük ölçülü ayaqqabı geyinənlər, satışda ağ və ya qırmızı ayaqqabı tapa bilməyənlərdən sifariş qəbul edirəm. İşlərimdən narazı qalan olmayıb. Bu peşədə uzun illər işləyən bir adam kimi demək istəyirəm ki, ayaqqabı alanda onun keyfiyyətinə fikir vermək lazımdır. Elə adam var ki, qiyməti ucuz olduğuna görə ayaqqabını alır, bir neçə gündən sonra dağılıb gedir. Onu da demək olmaz ki, bahalı ayaqqabıların hamısı keyfiyyətli olur. Əsas odur ki, ayaqqabının hazırlandığı materiala fikir verəsən. Bəzən elə ayaqqabılar gətirirlər ki, dəridən hazırlanmışa oxşayır. Ancaq sonra baxıb görürsən ki, həmin ayaqqabı plastik, dəriyə oxşayan sintetik materiallardan tikilib. Əgər ayaqqabı hava buraxmırsa, ayağı tərlədirsə, bu zaman göbələk xəstəliyi yaranır. Ona görə də ayaqqabı alanda sintetik materiallardan qaçmaq, təbii dəridən tikilmişlərə üstünlük vermək lazımdır.

Söhbətimizin sonunda usta ayaqqabını 2 gün dalbadal geyinməyin də ziyan olduğunu söylədi: "Bu həm ayaqqabıya, həm də ayaqlara ziyandır. Çünki eyni ayaqqabını 2 gün dalbadal geydikdə ayaq tərləyir, ayaqqabı özü nəmlənərək keyfiyyətini itirir. Ayaqda meydana gələn tər isə ayaqqabının tərkibindəki kimyəvi maddələrlə qarışır və tez bir zamanda onun çürüməsinə səbəb olur. Ayaqqabını düzgün seçmədikdə ayaqda ağrılar, yorğunluqlar da baş qaldırır. Buna görə çalışın, tərləmənin qarşısını alan ayaqqabılar alın".

✍ **Sona MİRZƏYEVA**

## *İtmişdir*

Naxçıvan şəhəri, "Azərbaycan" küçəsi, döngə 5, ev 45-də yaşayan Sadıqov Sadıq Qasım oğlunun adına olan 1482 inventar nömrəli texniki pasport və 18 avqust 2010-cu il tarixdə Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti tərəfindən verilmiş 0017553 seriya nömrəli çıxarış itdiyindən etibarsız sayılır.

## *Allah rəhmət eləsin*

Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsinin kollektivi Naxçıvan Dövlət Universitetinin prorektoru Mübariz Nuriyevə, əzizi
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi iş yoldaşları Arzu Kərimliyə, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Tibb Kollecinin direktoru İlhamə Mustafayeva və kollecin kollektivi iş yoldaşları
**SƏKİNƏ AXUNDOVANIN**
vəfatından kədərləndiklərini bildirir və mərhumun ailə üzvlərinə dərin hüznlə başsağlığı verirlər.

Naxçıvan Muxtar Respublikası Doğum Mərkəzinin Reanimasiya və cərrahiyyə şöbəsinin kollektivi iş yoldaşları Zəkiyyə Salmanovaya, anası
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Naxçıvan Şəhər Şöbəsinin kollektivi Rüstəm Həsənova, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Pedaqoji fakültəsinin professor-müəllim kollektivi Mübariz Nuriyevə, əzizi
**ZƏRİFƏ XANIMIN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlakın Dövlət Reyestri Xidməti Şərur Rayon Şöbəsinin kollektivi Rüstəm Həsənova, əzizi
**CEYHUN ORUCƏLİYEVİN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Rus dili və ədəbiyyatı kafedrasının kollektivi Xanəli Kərimliyə, əzizi
**CEYHUNUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Elbrus İsayev ailəsi ilə birlikdə Xanəli Kərimliyə, əzizi
**CEYHUNUN**
vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

Naxçıvan Dövlət Universitetinin Beynəlxalq münasibətlər kafedrasının müdiri Yusif Hüseynov və kafedranın əməkdaşları Xanəli Kərimliyə, əzizi
**CEYHUNUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Akif İmanlı, Arif Ağalarov, Nizami Quliyev, Azad Novruzov, İbrahim Rüstəmov və Sahib Əliyev yaxın dostları Xanəli Kərimliyə, əzizi
**CEYHUNUN**
vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Muxtar Qasımzadə, Aydın Tarverdiyev, Arif Qədimov yaxın dostları Xanəli Kərimliyə, əzizi
**CEYHUNUN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

Adil Bağırov və Firudin Rzayev Xanəli və Pirəli Kərimlilərə, əzizləri
**CEYHUNUN**
vaxtsız vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.


**ŞƏRQ qapısı**

**Baş redaktor:** TURAL SƏFƏROV

*Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.*

*Telefonlar: Məsul katib: 545-62-47*
*Şöbələr: 545-81-44, 545-51-18*
*Müxbirlər: 545-75-21, Faks: 544-52-52*
E-mail: *serqqapisi@nakhchivan.az*

**Qeydiyyat №: 575**

*Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır*

*Nömrəyə məsul:* **Səbuhi Hüseynov**

*Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.*

**Tiraj: 4020. Sifariş № 336**